# Şəmkir bələdiyyələrinin iş təcrübəsi öyrənilməyə dəyər



❒ ***Həmin gün ən çox sevinən də, həyəcanlanan da, qürur hissi keçirən də rayon icra hakimiyyətinin başçısı Alimpaşa Məmmədov idi. Zarafat deyil, cəmi iki il keçib, amma Şəmkir bələdiyyələri bu qədər uğura imza ata biliblər və rayonun təcrübəsi respublika səviyyəsində öyrənilməyə başlanıb.***

2014-cü ilin dördüncü rübündən başlayaraq, yerli özünüidarəetmə sisteminin təkmilləşdirilməsi və inkişafı nəticəsində icra strukturları, sahibkarlarla qarşılıqlı əlaqələr qurulmuş, bələdiyyələrin iqtisadi və maliyyə vəziyyəti yaxşılaşmış, sosial layihələrin həyata keçirilməsi asanlaşmışdır. Bu, yerli bələdiyyələrin fəaliyyətində yeni mərhələnin başlanğıcı olmuşdur. Respublikada ilk dəfə olaraq Şəmkirdə 42 bələdiyyənin nəzdində 45 məhdud məsuliyyətli cəmiyyət təsis edilmiş, hər bir bələdiyyənin ərazisində iqtisadi dəyərləndirməyə uyğun olaraq istehsal, emal və xidmət sahələrinin yaradılmasına start verilmişdir. Bu da yerli özünüidarəetmə orqanı kimi bələdiyyələrin rolunu rayon əhalisinin həyatında əhəmiyyətli dərəcədə artırmışdır.

İndi budur, Azərbaycanın müxtəlif şəhər və rayonlarının bələdiyyə sədrləri, Milli Məclisin deputatları, maliyyə, vergi, ədliyyə nazirliklərinin, kütləvi informasiya vasitələrinin nümayəndələri Şəmkirdə, möhtəşəm Heydər Əliyev Mərkəzində "dəyirmi masa" ətrafında toplaşıb. İcra hakimiyyətinin başçısı Alimpaşa Məmmədov qonaqları salamladıqdan və onları Şəmkirdə gördüyündən məmnunluğunu bildirdikdən sonra sözü Milli Məclisin regional məsələlər komitəsinin sədri Arif Rəhimzadəyə vermişdir. Komitə sədri demişdir ki, "Bələdiyyələrin maliyyə və iqtisadi potensialının gücləndirilməsi perspektivləri" mövzusunda Şəmkirdə təşkil olunan bu konfrans Milli Məclisin regional məsələlər komitəsi, şəhər, qəsəbə və kənd bələdiyyələrinin milli assosiasiyaları və Şəmkir Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə keçirilir.

Arif Rəhimzadə qeyd etdi ki, Şəmkir bələdiyyələrinin bu sahədəki uğurları təqdirə layiqdir və onu dərindən öyrənib geniş yaymaq lazımdır. Bələdiyyənin kifayət qədər vəsaiti yoxdursa, onun səmərəli fəaliyyətindən danışmaq mümkün deyil. Odur ki, Şəmkir bələdiyyələrinin hər birinin nəzdində MMC- lər təşkil etməklə istehsal sahələri yaratmaq, yeni iş yerləri açmaq, gəlir əldə etmək alqışalayiqdir. Lakin maliyyə mənbələri bir daha dəqiqləşməli, müvafiq qurumlarla məsləhətləşmək, bələdiyyələrin hesabına daha çox vəsaitin daxil olmasına nail olmaq lazımdır.

Məruzələr və çıxışlar başlamazdan əvvəl Şəmkir bələdiyyələrinin iş təcrübəsinə həsr olunmuş videoçarxın nümayiş etdirilməsini konfrans iştirakçıları çox böyük maraqla qarşılamışdır. Hətta iştirakçılardan biri çıxışı zamanı qeyd etdi ki, elə bildim hansısa Avropa ölkəsində bələdiyyənin işinə həsr olunmuş filmə baxıram. Samux rayonu Sərkar bələdiyyəsinin sədri Şəmistan Yusifov isə dedi ki, on beş il qabaq Alimpaşa Məmmədov kimi bir başçı ilə işləsəydik, indi bizim bələdiyyənin sorağı nəinki Avropaya, dünyanın hər yerinə yayılmışdı. Təəssüf ki, lazımi dəstək ala bilmədik və Sərkar bələdiyyəsi də bu gün digər bələdiyyələrin qarşılaşdıqları problemlərlə üzləşir.

Əslində, Ş.Yusifovun dediyində həqiqət var. Çünki bələdiyyələrlə yerli icra orqanları arasında qarşılıqlı əlaqə, kömək olmadısa, yerli idarəetmə orqanları lazımi fəaliyyət göstərə bilməyəcəklər. Bu gün Şəmkir bələdiyyələrinin iqtisadiyyatın inkişafında, sosial- iqtisadi məsələlərin



həllində rolu ona görə yüksəlir ki, rayon icra hakimiyyəti onlara dəstək olur, potensial imkanlarını üzə çıxarır, təşəbbüslərini bəyənir, yayılmasına kömək edir.

Rayonun ən böyük bələdiyyəsi olan Şəmkir bələdiyyəsinin nəzdində 3 MMC – "Ceyrançöl", "Abad Şəmkir" və "Morul Tikinti" müəssisələri fəaliyyət göstərir.

"Ceyrançöl" MMC Ceyrançöl massivində iri nümunəvi taxılçılıq, əkinçilik və bitkiçilik təsərrüfatlarının yaradılması hesabına ərsəyə gəlib. Qısa müddət ərzində 2000 hektar torpaq sahəsi əkin dövriyyəsinə daxil edilmiş, əraziyə 2 istiqamətdən 730 millimetrlik dəmir borularla uzunluğu 7,5 kilometr və qismən kiçik diametrli borularla 3,5 kilometr təsərrüfatdaxili su xətləri çəkilmişdir. Burada 877 hektar torpaq sahəsini suvarmaq üçün 14 ədəd müxtəlif radiuslu müasir pivot suvarma sistemi quraşdırılmış və həmin pivotları enerji ilə təmin etmək məqsədilə yeni elektrik yarımstansiyası tikilmişdir. Yarımstansiyadan pivotlara qədər 4 kilometr uzunluğunda yeni elektrik xətti çəkilmiş, tutumu 65 min kubmetr olan su anbarı yaradılmış, bir sıra inzibati və yardımçı binalar inşa olunmuşdur. MMC-nin texniki bazasını möhkəmləndirmək, aqrotexniki işlərin aparılması üçün ilkin olaraq 10 ədəd müasir "NEÜ Holland" markalı traktor, müxtəlif kənd təsərrüfatı maşını və avadanlıqlar lizinq yolu ilə əldə edilmişdir.

Təsərrüfatda 671 hektar pivotaltı sahədə şəkər çuğunduru, 550 hektar sahədə taxıl, 110 hektar ərazidə müxtəlif növ tərəvəz bitkiləri əkilmişdir. Bağçılığın inkişafı məqsədilə 20 min ədəd zeytun, 30 min ədəd əncir və 60 min ədəd nar çubuğu ting üçün hazırlanmışdır. 35 nəfərin daimi, 200 nəfərin mövsümi işlə təmin olunduğu MMC-də qısa müddət ərzində görülən işlərin nəticəsi yeni hədəflərin müəyyənləşdirilməsinə zəmin yaradıb.

Qeyd edək ki, 8000 hektar torpaq sahəsinin əkin dövriyyəsinə daxil edilməsi, Ceyrançöl massivində 4723 hektar sahədə 84 ədəd müxtəlif radiuslu pivot suvarma sisteminin, bağçılığın inkişaf etdirilməsi məqsədilə 2400 hektar sahədə damcı suvarma sisteminin quraşdırılması, 5600 hektar sahəyə ilkin olaraq taxıl, gələcəkdə növbəli əkin prinsipinə uyğun şəkər çuğunduru, soya, kartof, soğan və digər bitkilərin əkilməsi, 2500 hektar torpaq sahəsinin 2000 hektarında fındıq, 500 hektarda isə badam, nar, zeytun, əncir, çəkil və xurma ağaclarının əkilməsi, əkinəyararlı torpaq sahəsinin suvarma suyu ilə təmin edilməsi üçün infrastrukturun təşkili, 30 min ton saxlama tutumuna malik taxıl anbar kompleksinin, 10 min tonluq kartof saxlanc anbarının, 5 min tonluq soğan saxlama kamerasının yaradılması, 145 kilometr əsas və təsərrüfatdaxili yolların çəkilməsi əhalinin yüksək keyfiyyətli kənd təsərrüfatı məhsulları ilə təmin edilməsinə, ərzaq təhlükəsizliyinə, eləcə də yeni iş yerlərinin yaradılmasına geniş imkanlar açacaq.

"Abad Şəmkir" MMC-yə məxsus Şəmkir şəhərinin Ağ dağlar adlanan ərazisində "Natural" su və konserv məhsulları istehsal edən zavodu inşa edilərək sakinlərin istifadəsinə verilib. Hazırda müəssisədə 5 dolum xətti fəaliyyət göstərir. Şüşə xəttində saatda 3000 ədəd, plastik xəttində isə 5000 ədəd içməli su qablaşdırılır. Zavodda 52 yeni iş yeri açılıb. Gələcəkdə müəssisədə yeni istehsal sahələri yaradılmaqla, işçilərin sayı da artırılacaqdır.

"Morul Tikinti" MMC isə 2015-ci ilin oktyabr ayından fəaliyyətə başlamışdır. Cəmiyyətin nəzdində qum-çınqıl, tamet və asfalt zavodu fəaliyyət göstərir. Qum-çınqıl sexində saatda 100 ton xammal qəbul edilərək, ondan 4 çeşiddə məhsul istehsal olunur. Tamet sexində saatda 100 kvadratmetr tamet, eyni həcmdə bardür istehsal edilir. "Morul Tikinti"də 120 nəfər işlə təmin olunub.

Asfalt zavodunun gücündən səmərəli istifadə olunmaqla Şəmkir



şəhərinin Cahangir Rüstəmov, Sevil Qazıyeva, Əhməd Cavad və Məhəmməd Füzuli küçələrinə ümumi uzunluğu 10 kilometr asfalt örtüyü salınmış, səkilərə tamet döşənmiş, bəzək üzlük daşları vurulmaqla, yol ətrafında bardürlər dəyişdirilmişdir.

"Morul Tikinti" MMC-nin istifadəsində olan 35 ədəd maşın və texnikanın hesabına Şəmkir şəhərindən başqa rayonun qəsəbə və kənd bələdiyyələrinin sifarişi ilə ümumi uzunluğu 1314 kilometr olan küçə və kəndarası yollar təmir edilmişdir.

Gəncə-Qazax magistral yolunun kənarında yerləşən "Şəmkir səbəti" isə Çinarlı MMC-nin nəzdində fəaliyyət göstərir. Qısa müddət ərzində 5 hektar ərazidə yerləşən ticarət mərkəzində kənd təsərrüfatı, ərzaq və digər məhsulların topdan və pərakəndə satışını təmin etmək üçün 147 ədəd köşk, ət kəsimi məntəqəsi və ərzaq mağazası yaradılmışdır. Bundan başqa, "Şəmkir səbəti"nin nəzdində 26 yerlik otel, ailəvi istirahət mərkəzi, 5 ədəd soyuducu anbar və avtomobil dayanacağı vardır. Bu böyük mərkəzin xidmətindən Gəncənin və ətraf rayonların sakinləri də istifadə edir. "Şəmkir səbəti" ilə yerli bələdiyyələrin yaratdığı 42 tədarük məntəqəsinin qarşılıqlı işbirliyi yerlərdə istehsal olunan kənd təsərrüfatı məhsullarının istehlakçılara çatdırılmasına şərait yaradır.

Rayon üzrə bələdiyyələrin nəzdində təsis edilən belə müəssisələrdən biri də Çənlibel bələdiyyəsi tərəfindən təsis edilmiş "Maral" MMC-dir. Respublikamızın ərazisində maralçılığın və ekoturizmin inkişaf etdirilməsi məqsədilə Rusiya Federasiyasının Altay vilayətindən 60 baş maral gətirilmiş, əhaliyə piknik xidmətinin göstərilməsi üçün yaradılan istirahət mərkəzində 62 ədəd "besedka" quraşdırılmışdır.

Bir vaxtlar Bakı-Qazax magistralının Şəmkir rayonu ərazisindən keçən hissəsində pərakəndə şəkildə fəaliyyət göstərən inşaat materiallarının satış məntəqələri indi bir ünvanda- Sabirkənd MMC-nin tərkibində 19 hektar torpaq sahəsində yaradılan tikinti materialları bazarında əhaliyə gündəlik xidmət göstərir. Ərazi baxımından genişliyi ilə diqqətçəkən bu bazar indi tək Şəmkirin deyil, ətraf rayonların da əsas ticarət məkanına çevrilmişdir.

Qaracəmirli MMC-də yaradılan quşçuluq təsərrüfatları əhalinin tələbatının ödənilməsinə hesablanıb. Burada, əsasən, Rusiya və Avropa cinsindən olan 2000 başa yaxın qaz bəslənilir. Gələcəkdə qazların baş sayının artırılması ilə quşçuluğun inkişafı planlaşdırılır.

Ölkə Prezidentinin qeyri-neft sektorunun inkişafı ilə bağlı verdiyi göstərişlərin davamı olaraq Şəmkirdə Aqropark kompleksinin yaradılması yerli bələdiyyələrin nəzdində formalaşdırılan 42 məntəqədə tədarük olunan məhsulların satışına da imkan verəcəkdir. Aqroparkın yaradılması regionda fəaliyyət göstərən fermerlərə məsləhət, texniki və loqistika xidmətlərinin göstərilməsinə, müasir texnologiyaların tətbiqinə, toxum, ştil və ting ilə təmin olunmasına şərait yaradacaq və nəticədə yüksək məhsuldarlığın və mənfəətin təmin edilməsini stimullaşdıracaqdır. Növbəti ildə birinci mərhələdəki işlərin başa çatdırılması planlaşdırılan "Şəmkir Aqropark"da müasir istilikxana kompleksi, şitilçilik, tingçilik və intensiv bağçılıq təsərrüfatı, meyvə-tərəvəz emalı zavodları, tara istehsalı fabriki, logistika və aqroservis mərkəzləri, soyuducu anbar, satış mərkəzləri, avtopark, elmi-araşdırma və innovasiyalar mərkəzi, otel və müxtəlif infrastruktur müəssisələri yaradılacaqdır. Burada kiçik laboratoriya məntəqəsi və "vahid pəncərə" buraxılış məntəqəsinin açılışı da nəzərdə tutulmuşdur.

Şəmkirdə xırda və orta sahibkarlığın inkişaf etdirilməsində rayonda 10 hektar sahədə salınacaq sənaye məhəlləsinin rolu əvəzsiz olacaq. Sənaye məhəlləsində fəaliyyəti nəzərdə tutulan 24 istehsal və emal müəssisələri yeni iş yerlərinin yaradılması ilə yanaşı, rayonun iqtisadi potensialını da artıracaqdır.

Şəmkirdə balıqçılığın və ekoturizmin inkişafı üçün də planlar var. Rayon ərazisində mövcud olan Şəmkirçay dəryaçası, Şəmkir və Yenikənd su anbarları özəl pilot balıqçılıq təsərrüfatının yaradılması üçün böyük potensial mənbəyidir.

Rayonda aqrar sahənin inkişaf etdirilməsi, əkinə yararlı torpaq sahələrinin dövriyyəyə cəlb edilməsi, məhsulların rentabelliyinin artırılması məqsədi ilə bələdiyyələrin nəzdində müasir kənd təsərrüfatı texnikası və avadanlıqlardan ibarət 5 aqroservis mərkəzinin yaradılması da planlaşdırılır.

Rayonda əhalinin sosial rifahının yüksəldilməsi, eləcə də mənzil-məişət şəraitinin yaxşılaşdırılması daim diqqət mərkəzindədir. Bunun üçün Şəmkir şəhərində 24 hektar ərazidə ekonomklass sosial evlərin tikintisi reallaşmaq üzrədir.

Rayonda fəaliyyət göstərən bələdiyyələrin inkişaf tempi yerli və xarici özünüidarəetmə orqanları ilə əlaqələrin qurulmasında da özünü göstərir. Belə ki, Şəmkir bələdiyyəsinin son vaxtlar Bakı şəhəri Binəqədi rayon Rəsulzadə bələdiyyəsi və Türkiyə Respublikasının Anamur bələdiyyəsi ilə imzaladığı niyyət protokolları rayonda bələdiyyə institutunun sürətlə inkişafından xəbər verir.

Bələdiyyələrin uğurlu fəaliyyəti ölkə başçısı İlham Əliyevin iqtisadi və sosial sahələrin inkişafına yönələn siyasətinin dəstəklənməsinə xidmət edir. Ümummilli lider Heydər Əliyevin inkişaf strategiyasına əsaslanan və müasir çağırışlara cavab verən dövlət siyasəti ümumilikdə ölkə iqtisadiyyatının şaxələndirilməsi və əhalinin rifah halının yaxşılaşmasına xidmət edən qeyri-neft sektorunda tərəqqiyə hesablanıb. Təbii ki, bu uğurda Şəmkir bələdiyyələrinin nəzdində yaradılan istehsal və xidmət sahələrinin də xüsusi yeri var.

...Onu da qeyd edək ki, ikigünlük konfrans çox faydalı olmuşdur. Qonaqlar müxtəlif təsərrüfatlar, əkin sahələri, "Şəmkir səbəti" bazar kompleksi və rayonun digər yerləri ilə tanış olmuş, bələdiyyələrin icra hakimiyyəti ilə səmərəli işinin nəticələrini görmüşlər.

Şəmkirdə sözlə işin vəhdəti açıqaydın hiss olunur. Son iki ildə bu rayon, sözün əsl mənasında, özünün intibah dövrünü yaşayır.

***Hamlet QASIMOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***